**UOT 334.012.62/.64**

# KİÇİK VƏ ORTA BİZNESLƏRİN İQTİSADİ İNKİŞAFA TÖFHƏLƏRİ: BEYNƏLXALQ TƏCRÜBƏ

**Aslan İMANOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 10 fevral 2025; çapa qəbul edilmişdir: 16 may 2025; online-da çap edilmişdir: 25 iyun 2025.

Received: 10th of February, 2025; accepted: 16th of May, 2025; published online: 25th of June, 2025.

**Açar sözlər:** *kiçik və orta biznes (KOB), iqtisadi inkişaf, beynəlxalq bazar, innovasiya, qlobal ticarət sistemi*

## Giriş

Kiçik və orta bizneslər (KOB-lar) müasir iqtisadiyyatın əsas komponentlərindən biri olaraq həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə mühüm rol oynayır. KOB-lar Ümumi Daxili Məhsulun (ÜDM) artımında və yeni iş yerlərinin yaradılmasında əsas faktorlardan biridir. Dünya Bankının Kiçik Biznes Fəaliyyətləri üzrə icmalı göstərir ki, kiçik və orta müəssisələrin inkişafı iqtisadi artımın, məşğulluğun artırılmasının və yoxsulluğun azaldılmasının əsas elementi kimi qəbul edilir. Dünya Bankı Qrupu təkcə 2004-cü il ərzində mikro, kiçik və orta müəssisələri dəstəkləmək üçün təxminən 2,8 milyard dollar vəsait ayırmışdır. Qlobal və regional iqtisadiyyatın davamlı bərpasında KOB-ların oynadığı rol getdikcə daha çox tanınır. Lakin məlumat çatışmazlığı səbəbindən KOB-ları dəstəkləyən müxtəlif siyasətlərin əsaslandırılması üçün bu sahədə sistemli tədqiqatların sayı çox azdır. Ölçüyə əsaslanan müəssisə təşviqi iqtisadi səbəblərin əksinə, daha çox sosial və siyasi mülahizələrlə idarə olunur. İqtisadiyyatın şaxələndirilməsi, yeni bazarların açılması və iqtisadi sabitliyin təmin edilməsi baxımından kiçik və orta bizneslər mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, inkişaf etməkdə olan ölkələrdə KOB-lar iş yerlərinin böyük hissəsini təmin edir ki, bu da uzunmüddətli iqtisadi inkişaf və sosial sabitlik üçün əsas amil kimi çıxış edir [17].

Bu məqalə KOB-ların iqtisadi inkişafdakı rolunu nəzərdən keçirir, onların cəmiyyətə və iqtisadiyyata verdiyi töhfələri təhlil edir, eyni zamanda bu müəssisələrin qarşılaşdığı çətinlikləri araşdırır. Məqalənin əsas məqsədi kiçik və orta bizneslərin inkişafını təşviq edə bilən siyasətlərin müəyyənləşdirilməsidir.

## 1. KOB-ların ümumi xarakteristikası

KOB-ların tərifi dünya miqyasında müxtəlif ölçü və təsniflərə əsaslanır. Beynəlxalq təşkilatlar müəyyən meyarlar tətbiq edərək bu müəssisələri təyin edir. KOB-lar əsasən işçi sayına, illik gəlir və ya dövriyyəyə görə təsnif edilir.

Dünya Bankının tərifinə əsasən, KOB-lar adətən işçi sayı və gəlir səviyyəsinə görə aşağıdakı şəkildə təsnif edilir [23]:

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* aslanimanov749@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.2.279**

- **Kiçik müəssisələr:** İllik dövriyyəsi 3 milyon ABŞ dollarından aşağı və işçi sayı 50-dən az olan müəssisələr.
- **Orta müəssisələr:** İllik dövriyyəsi 3 milyon ilə 15 milyon ABŞ dolları və işçi sayı 50-250 arasında olan müəssisələr.

KOB-lar Avropa İttifaqı meyarlarına əsasən isə üç əsas göstərici ilə müəyyən edir [7]:

- **İşçi sayı:** Kiçik müəssisələr üçün 50 nəfər, orta müəssisələr üçün isə bu rəqəm 250-ə qədər ola bilər.
- **İllik dövriyyə:** Kiçik müəssisələr üçün 10 milyon avro, orta müəssisələr üçün isə 50 milyon avroya qədər olaraq təyin edilir.
- **Balans cədvəli cəmi:** Kiçik müəssisələr üçün bu məbləğ 10 milyon avro, orta müəssisələr üçün isə 43 milyon avroya qədər olmalıdır.

Birləşmiş Millətlər Təşkilatının (BMT) KOB-lara dair tərifi isə onların məşğulluq yaratma və iqtisadi inkişafdakı rolunu vurğulamaqla yanaşı, hüquqi statusunun və ölçülərinin ölkələrə görə dəyişdiyini qeyd edir [20].

## 2. KOB-ların qlobal iqtisadiyyatda rolu

Qlobal iqtisadiyyatın inkişafında mühüm mövqeyə malik olan kiçik və orta bizneslərin (KOB) fəaliyyəti iqtisadi artım və məşğulluq sahələrində önəmli nəticələr doğurmaqla yanaşı, innovasiya, texnologiya və rəqabət qabiliyyətinin güclənməsinə də böyük töhfə verir. Dünya Bankının 2019-cu ildə təqdim etdiyi məlumatlara əsasən, qlobal miqyasda bizneslərin 90%-ni, inkişaf etməkdə olan ölkələrdə isə Ümumi Daxili Məhsulun (ÜDM) 40%-ni rəsmi KOB-lar təşkil edir [24]. Qeyri-rəsmi KOB-lar da bu rəqəmlərə daxil edildikdə göstəricilər daha yüksək olur. Hesablamalara görə, 2030-cu ilə qədər artan işçi qüvvəsinin tələbatını qarşılamaq üçün 600 milyon yeni iş yerinə ehtiyac yaranacaq. Bu tələbat KOB-ların inkişafını qlobal miqyasda dövlətlər üçün əsas prioritetlərdən birinə çevirəcək.

İnkişaf etməkdə olan ölkələrdə məşğulluğun 70%-i KOB-lar tərəfindən təmin edilir [25]. Bu ölkələrdə KOB-lar iqtisadi inkişafın əsas aparıcı qüvvəsi hesab olunur. Məsələn, Asiya-Sakit Okean regionunda fəaliyyət göstərən KOB-lar iqtisadiyyatın 97%-ni əhatə edərək, iş yerlərinin yarısından çoxunu təmin edir [3]. Bu inkişaf istiqaməti KOB-ların beynəlxalq ticarət imkanlarından yararlanmaq üçün daha çox dövlət dəstəyinə ehtiyac duyduğunu göstərir. Yeni texnologiyalar KOB-ların məhsuldarlığını artırmaqda mühüm rol oynayır. Ernst & Young (2021) tərəfindən yayımlanan araşdırmaya görə, KOB-ların 65%-i yeni texnologiyaların tətbiqi ilə daha effektiv işləyir. Bu, onların bazar rəqabətində mövqelərini gücləndirməyə kömək edir və onlara yeni bazarlara daxil olma imkanı verir.Texnologiya və rəqəmsallaşma dövründə KOB-lar üçün yeni imkanlar yaranmışdır. 2021-ci ildə aparılan araşdırmalar göstərir ki, elektron ticarət platformalarından istifadə edən KOB-lar satışlarını 30%-dən çox artırmağa nail olmuşdur [16]. Xüsusilə, rəqəmsal texnologiyalar kiçik müəssisələrin qlobal bazarlara daha rahat çıxmasını təmin edir.

*Qrafik1*. 2000-2023-cü illər üzrə dünya miqyasında kiçik və orta bizneslərin sayı




**Mənbə:** (28).

Ətraf mühitin qorunması və davamlı iqtisadi inkişaf kontekstində, KOB-lar resurslardan səmərəli istifadə edərək karbon izini azaltmaqda mühüm rol oynayır. Davamlı inkişaf strategiyaları tətbiq edən KOB-lar xərclərini azaltmaqla yanaşı, rəqabət qabiliyyətini də artırır [19].

Türkiyədə fəaliyyət göstərən KOB-ların sayı təxminən 3,2 milyona çatır və bu, ölkədəki qeydiyyatlı təsərrüfat subyektlərinin 99,8%-ni əhatə edir. KOB-lar ümumi dövriyyənin təxminən 64,5%-ni, ixracatın 56,3%-ni və işçi qüvvəsinin 73,8%-ni təşkil edərək iqtisadiyyatın əsas hissəsini təmin edir [1].

### 3. Qlobal iqtisadi inkişafda KOB-ların qarşılaşdığı problemlər

Kiçik və orta bizneslər (KOB-lar) böyük şirkətlərə nisbətən bank kreditləri almaqda daha çox çətinliklərlə üzləşirlər. Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) məlumatına əsasən, inkişaf etməkdə olan ölkələrdəki rəsmi mikro, kiçik və orta müəssisələrin təxminən 65 milyonunun hər il 5.2 trilyon dollar həcmində qarşılanmamış maliyyə ehtiyacı vardır. Bu göstərici qlobal miqyasda KOB-lara verilən kreditlərin mövcud səviyyəsinin 1.4 qatını təşkil edir. Dünya miqyasında maliyyə boşluğunun ən böyük hissəsini Şərqi Asiya və Sakit Okean bölgəsi (46%) təşkil edir; ikinci yerdə Latın Amerikası və Karib dənizi (23%), üçüncü yerdə isə Avropa və Mərkəzi Asiya (15%) gəlir. Rəsmi KOB-ların təxminən 50%-i hələ də rəsmi maliyyə xidmətlərinə çıxış əldə edə bilmədiyi halda, mikro və qeyri-rəsmi müəssisələr nəzərə alındıqda isə bu maliyyə boşluğu daha da yüksək göstəricilərə çatır [12].

KOB-ların maliyyələşməsi üçün dəstək siyasəti əsasən aşağıdakı istiqamətlərlə təqdim olunur [15]:

- *Maliyyə sektorunun qiymətləndirilməsi:* KOB-ların maliyyə dəstəyinə daha məsuliyyətli çıxışını təmin etmək məqsədilə tənzimləmə və siyasət sahələrindəki inkişaf imkanlarının müəyyənləşdirilməsi.
- *Kredit zəmanət sxemləri və maliyyə inkişaf mühiti:* Kredit zəmanət sxemlərinin hazırlanması və təsirli bir maliyyə inkişaf mühitinin qurulması kimi təşəbbüslərin tətbiqinə dəstək vermək.
- *Kredit infrastrukturunun inkişaf etdirilməsi:* KOB-ların maliyyəyə çıxış imkanlarını artırmaq üçün kredit hesabat sistemləri, təminatlı əməliyyatlar və girov qeydiyyatları, iflas qanunvericiliyi kimi sahələrin təkmilləşdirilməsi.
- *Yeni yanaşmaların tətbiqi:* Elektron kredit platformaları, elektron fakturalar, elektron faktorinq və təchizat zənciri maliyyələşməsi kimi yeni yanaşmaların tətbiqi vasitəsilə KOB-ların maliyyələşməsinə dəstək verilməsi.
- *Siyasət və analitik dəstək:* KOB-ların maliyyələşməsi ilə əlaqədar siyasət və analitik işlərin, eləcə də digər məsləhət xidmətlərinin təqdim edilməsi.
- *Qlobal tərəfdaşlıq:* G20 Qlobal Maliyyə Əlçatanlığı Tərəfdaşlığı, Maliyyə Sabitliyi Şurası və Beynəlxalq Kredit Komitəsi ilə birlikdə iştirak və dəstək

göstərilməsi ilə qlobal miqyasda KOB-ların maliyyələşməsi ilə bağlı tərəfdaşlıq.

Hökumət dəstəyi, dünyanın əksər hökumətlərinin öz iqtisadiyyatlarını sabit saxlamaq məqsədilə KOB sektorunun inkişafına yönəlmiş dəstək proqramlarına diqqət yetirməsi ilə müşahidə olunur [4].

Texnoloji resurslar hər hansı bir biznesin uğurunda ən vacib amillərdən biridir. Ən son texnologiyalardan istifadə edən firmalar müştərilərini rəqiblərindən daha asan cəlb edə bilirlər. Texnologiyanın müəyyən bir maliyyə xərci olsa da, bizneslər bu xərcləri ümumiyyətlə fəaliyyətlərini davam etdirərkən bərpa edirlər. Hətta yeni texnologiyanın tətbiqi ilə rəqiblərinə qarşı üstünlük qazana bilirlər. Üçüncü dünya ölkələrində isə əksər KOB-lar texnologiyanın yüksək xərcləri səbəbindən yeni texnologiyaları tətbiq edə bilmir. Lakin əvvəlki araşdırmalar göstərib ki, texnologiya KOB-ların biznes uğuru ilə sıx bağlıdır və texnologiyanın biznes uğuruna müsbət təsiri olduğu müəyyən edilmişdir [5]. KOB-ların Ar-Ge (Araşdırma və İnkişaf) və məhsul sürətləndirmək üçün kifayət qədər maliyyə imkanı yoxdur. KOB-larla bağlı ən son aparılmış araşdırmalarda isə maliyyə elastikliyinin biznesin uğuru ilə sıx əlaqəli olduğu ortaya çıxmışdır. Üçüncü tərəfdən maliyyə əldə edən KOB-ların müvəffəqiyyət şanslarının daha yüksək olduğu bildirilmişdir [18].

## 4. Dövlət və Beynəlxalq təşkilatların KOB-ları dəstəkləmə siyasətləri

Kiçik və orta bizneslər (KOB-lar) böyük şirkətlərə nisbətən bank kreditləri almaqda daha çox çətinliklərlə üzləşirlər. Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) məlumatına əsasən, inkişaf etməkdə olan ölkələrdəki rəsmi mikro, kiçik və orta müəssisələrin təxminən 65 milyonunun hər il 5.2 trilyon dollar həcmində qarşılanmamış maliyyə ehtiyacı vardır. Bu göstərici, qlobal miqyasda KOB-lara verilən kreditlərin mövcud səviyyəsinin 1.4 qatını təşkil edir. Dünya miqyasında maliyyə boşluğunun ən böyük hissəsini Şərqi Asiya və Sakit Okean bölgəsi (46%) təşkil edir; ikinci yerdə Latın Amerikası və Karib dənizi (23%), üçüncü yerdə isə Avropa və Mərkəzi Asiya (15%) gəlir. Rəsmi KOB-ların təxminən 50%-i hələ də rəsmi maliyyə xidmətlərinə çıxış əldə edə bilmədiyi halda, mikro və qeyri-rəsmi müəssisələr nəzərə alındıqda bu maliyyə boşluğu daha da yüksək göstəricilərə çatır [12].

KOB-ların maliyyələşməsi üçün dəstək siyasəti əsasən aşağıdakı istiqamətlərlə təqdim olunur [15]:

- *Maliyyə sektorunun qiymətləndirilməsi:* KOB-ların maliyyə dəstəyinə daha məsuliyyətli çıxışını təmin etmək məqsədilə tənzimləmə və siyasət sahələrindəki inkişaf imkanlarının müəyyənləşdirilməsi.
- *Kredit zəmanət sxemləri və maliyyə inkişaf mühiti:* Kredit zəmanət sxemlərinin hazırlanması və təsirli bir maliyyə inkişaf mühitinin qurulması kimi təşəbbüslərin tətbiqinə dəstək.
- *Kredit infrastrukturunun inkişaf etdirilməsi:* KOB-ların maliyyəyə çıxış imkanlarını artırmaq üçün kredit hesabat sistemləri, təminatlı əməliyyatlar və girov qeydiyyatları, iflas qanunvericiliyi kimi sahələrin təkmilləşdirilməsi.
- *Yeni yanaşmaların tətbiqi:* Elektron kredit platformaları, elektron fakturalar, elektron faktorinq və təchizat zənciri maliyyələşməsi kimi yeni yanaşmaların tətbiqi vasitəsilə KOB-ların maliyyələşməsinə dəstək.
- *Siyasət və analitik dəstək:* KOB-ların maliyyələşməsi ilə əlaqədar siyasət və analitik işlərin, eləcə də digər məsləhət xidmətlərinin təqdim edilməsi.
- *Qlobal tərəfdaşlıq:* G20 Qlobal Maliyyə Əlçatanlığı Tərəfdaşlığı, Maliyyə Sabitliyi Şurası və Beynəlxalq Kredit Komitəsi ilə birlikdə iştirak və dəstək göstərilməsi ilə qlobal miqyasda KOB-ların maliyyələşməsi ilə bağlı tərəfdaşlıq.

## 5. Texnologiya və marketinqin KOB-ların uğuruna təsiri

Hökumət dəstəyi, dünyanın əksər hökumətlərinin öz iqtisadiyyatlarını sabit saxlamaq məqsədilə KOB sektorunun inkişafına yönəlmiş dəstək proqramlarına diqqət yetirməsi ilə müşahidə olunur [4].

Texnoloji resurslar hər hansı bir biznesin uğurunda ən vacib amillərdən biridir. Ən son texnologiyalardan istifadə edən firmalar müştərilərini rəqiblərindən daha asan cəlb edə bilirlər. Texnologiyanın müəyyən bir maliyyə xərci olsa da, bizneslər bu xərcləri ümumiyyətlə fəaliyyətlərini davam etdirərkən bərpa edirlər. Hətta yeni texnologiyanın tətbiqi ilə rəqiblərinə qarşı üstünlük qazana bilirlər. Üçüncü dünya ölkələrində isə əksər KOB-lar texnologiyanın yüksək xərcləri səbəbindən yeni texnologiyaları tətbiq edə bilmir. Lakin əvvəlki araşdırmalar göstərib ki, texnologiya KOB-ların biznes uğuru ilə sıx bağlıdır və texnologiyanın biznes uğuruna müsbət təsiri olduğu müəyyən edilmişdir [5]. KOB-ların Ar-Ge (Araşdırma və İnkişaf) və məhsul sürətləndirmək üçün kifayət qədər maliyyə imkanı yoxdur. KOB-larla bağlı ən son aparılmış araşdırmalarda isə maliyyə elastikliyinin biznesin uğuru ilə sıx əlaqəli olduğu ortaya çıxmışdır. Üçüncü tərəfdən maliyyə əldə edən KOB-ların müvəffəqiyyət şanslarının daha yüksək olduğu bildirilmişdir [18].

Marketinq strategiyası da KOB-lar üçün kritik əhəmiyyət kəsb edir. Dünya üzrə fəaliyyət göstərən kiçik və orta bizneslərin əksəriyyəti daha az marketinq və texniki resurslara sahib olur, daha az bazar araşdırması aparır, daha az stimul və mükafat proqramları təklif edir, böyük və asan əldə edilə bilən bazarlarda yer almır və tanınmış markalara sahib deyillər [11]. Buna görə də, bazar inkişafı kiçik və orta ölçülü bizneslərin yüksək böyüməsini və müvəffəqiyyətini qorumaq üçün vacibdir. Bundan əlavə, bazara yönəlmə də biznesin inkişafı üçün lazımdır. Bazar yönəlməsi, təşkilat mədəniyyətinin müştərilərə daha yüksək dəyər yaratmaq üçün lazımi davranışı formalaşdırması kimi təyin olunur və bu, şirkət performansı ilə əhəmiyyətli dərəcədə əlaqələndirilmişdir. Daha spesifik olaraq, bazar əsaslı yönəlmənin, kiçik və orta bizneslərin homojen məhsulun olduğu bazarlarda sağlam və cəlbedici məhsul seçilməsi baxımından faydalı olduğu qeyd edilmişdir [22].

## 6. KOB-ların inkişafını müəyyən edən faktorların statistik təhlili

Kiçik və orta bizneslər (KOB-lar) qlobal iqtisadiyyatda mühüm rol oynayaraq, məşğulluq, innovasiya və rəqabət qabiliyyəti baxımından əsas dinamik qüvvələrdən biri kimi çıxış edir. Onların fəaliyyəti iqtisadi artımı dəstəkləməklə yanaşı, qloballaşma və rəqəmsal texnologiyaların inkişafı ilə daha geniş miqyasda təsir göstərməkdədir. Onların beynəlxalq ticarətdə artan rolu və regional inkişafdakı əhəmiyyəti qlobal iqtisadi sistemin güclənməsinə öz töhfəsini verir.

**Cədvəl. 2003-2004-cü illərdə İslamabadda KOB-ların inkişafında müəyyən faktorların statistik analizi**

| Dəyişənlər | Əmsal (Regression Coefficient) | Standart Səhv (Standard Error) | t-Dəyəri (t-Value) | p-Dəyəri (p-Value) |
|---|---|---|---|---|
| Konsistensiya | 0.743 | (0.678) | [4.034] | 0.000 |
| Maliyyə Resursları | 0.225 | (0.056) | [3.179] | 0.000 |
| Marketinq Strategiyası | 0.134 | (0.042) | [3.760] | 0.002 |
| Texnoloji Resurslar | 0.153 | (0.041) | [3.495] | 0.000 |
| Məlumatlara Çıxış | 0.078 | (0.036) | [2.190] | 0.029 |
| Hökumət Dəstəyi | 0.100 | (0.029) | [3.760] | 0.001 |
| Biznes Planı | 0.084 | (0.029) | [2.897] | 0.004 |
| İnkişafçı Bacarıq | 0.153 | (0.041) | [3.760] | 0.000 |
| R-kvadrat | 0.45 | | | |
| F-statistikası | 76.732 | | | |

**Mənbə:** (14)

Yuxarıdakı cədvəl biznes uğuru asılı dəyişəni ilə aparılmış reqressiya analizinin nəticələrini əks etdirir. Modelin əhəmiyyətli olduğunu və müstəqil dəyişənlərin asılı dəyişən üzərində əhəmiyyətli təsirə malik olduğunu R-kvadrat dəyərinin 0.45, F-dəyərinin 76.732 və p-dəyərinin 0.000 olması təsdiqləyir.

t-statistikası əmsalın standart səhvə bölünməsi ilə hesablanır. Standart səhv əmsalın standart sapmasının qiymətləndirilməsidir və nümunə üzərindəki dəyişkənliyi ölçür. Reqressiyanın R-kvadratı asılı dəyişənin dəyişkənliyinin nə qədərinin müstəqil dəyişənlər tərəfindən izah olunduğunu (və ya proqnozlaşdırıldığını) göstərir. (Bir müstəqil dəyişənlə aparılan reqressiyada bu, asılı və müstəqil dəyişənlər arasında olan korrelyasiyanın kvadratına bərabərdir.) R-kvadrat adətən ikinci dərəcəli əhəmiyyətə malikdir, yalnız əsas məqsəd reqressiya tənliyindən dəqiq proqnozlar verməkdirsə vacib sayılır. P-dəyəri isə hər bir müstəqil dəyişənin asılı dəyişənlə nə qədər güvənlə əlaqəli olduğunu göstərən vacib bir faktordur.

Analiz nəticəsində, aşağıdakı müstəqil dəyişənlərin p-dəyərləri onların biznes uğuruna əhəmiyyətli təsir göstərdiyini ortaya qoyur:

1. **Maliyyə resursları:** p-dəyəri = 0.000
2. **Marketinq strategiyası:** p-dəyəri = 0.002
3. **Texnoloji resurslar:** p-dəyəri = 0.000
4. **Məlumatlara çıxış:** p-dəyəri = 0.029
5. **Hökumət dəstəyi:** p-dəyəri = 0.001
6. **Biznes planı:** p-dəyəri = 0.004
7. **Sahibkarlıq bacarığı:** p-dəyəri = 0.000

Bu göstəricilər bütün sadalanan faktorların biznes uğurunda statistik cəhətdən əhəmiyyətli rol oynadığını təsdiqləyir.

## 7. Ədəbiyyat icmalı

Kiçik və orta bizneslərin (KOB-lar) inkişafını təşviq etmək üçün dövlət tərəfindən məqsədyönlü dəstək proqramlarının tətbiqi olduqca önəmlidir. Bu proqramlara vergi güzəştləri, sərfəli kredit imkanları və infrastruktur dəstəyi daxil edilməlidir. Məsələn, Avropa Birliyində "Horizon Europe" proqramı çərçivəsində KOB-ların innovativ layihələrə maliyyə dəstəyi alması onların inkişafında mühüm rol oynayır [7].

Regional əməkdaşlıq layihələri və sərbəst ticarət müqavilələri KOB-ların beynəlxalq bazarlara inteqrasiyasını əhəmiyyətli dərəcədə artırır. Beynəlxalq Ticarət Mərkəzinin məlumatlarına əsasən, təlim və texniki dəstək proqramları bu sahədə effektiv nəticələrə nail olmağa kömək edir [13].

*Rəqəmsallaşma və davamlılıq*

Rəqəmsal həllər və texnoloji innovasiyalara adaptasiya KOB-ların rəqabət qabiliyyətini artırmaq və yeni bazarlara çıxış imkanlarını genişləndirmək üçün effektiv vasitədir. Elektron kommersiya platformalarının inkişafı bu sahədə əhəmiyyətli bir üstünlük yaradır. Çinli kiçik müəssisələrin "Alibaba" platforması vasitəsilə satışlarını artırması bunun uğurlu nümunəsidir [28].

KOB-ların rəqabət üstünlüyünü və idarəetmə qabiliyyətlərini artırmaq üçün menecerlər və işçilər üçün təlimlərin təşkil edilməsi vacib amildir. OECD-nin araşdırmalarına əsasən, belə təlim proqramları bizneslərin effektivliyini əhəmiyyətli dərəcədə artırır [16].

Kiçik və orta bizneslər ekoloji davamlılığa xüsusi diqqət yetirməli, resursların səmərəli istifadəsini təşviq etməlidir. Davamlı biznes modelləri uzunmüddətli iqtisadi faydalara yol açır və ekoloji problemlərin həllində mühüm rol oynayır [19].

**Nəticə**

Bu məqalə kiçik və orta bizneslərin (KOB-lar) iqtisadi inkişafdakı rolunu və inkişaflarını təmin edən əsas amilləri araşdırmışdır. Nəticələr göstərir ki, KOB-lar iqtisadiyyatın əsas dayaq sütunlarıdır və onların inkişafı ümumi iqtisadi artım üçün vacibdir. Ancaq bu müəssisələrin qarşısında texnoloji, maliyyə və bazar genişlənməsi kimi ciddi problemlər mövcuddur.

**KOB-ların iqtisadi rolu:** KOB-lar yerli bazarlarda iş yerləri yaradır və iqtisadi fəallığı artırır, həmçinin əksər hallarda böyük müəssisələrin fəaliyyətlərini tamamlayır.

**Dövlət dəstəyi**: Dövlətin KOB-lara verdiyi vergi güzəştləri, maliyyə dəstəkləri və texnoloji kömək inkişaf üçün əhəmiyyətlidir.

**Məhdud resurslar:** KOB-ların maliyyə və texnoloji resursları məhduddur. Bu səbəbdən inkişaf etmiş ölkələrdə dövlət və özəl sektorun birgə fəaliyyətinin artırılması vacibdir.

**Beynəlxalq bazarlar:** KOB-ların beynəlxalq bazarlara çıxışını təmin edən mexanizmlər yaradılmalıdır.

**Dövlət dəstəyinin gücləndirilməsi:** KOB-lara maliyyə dəstəyi və texnoloji inkişaf sahəsində daha çox vəsait ayrılmalıdır.

**Texnoloji inkişaf:** Müasir texnologiyalar KOB-lar üçün əlçatan edilməli, rəqəmsal bacarıqlar artırılmalıdır.

**Bazar genişlənməsi:** Beynəlxalq sərgilər və ticarət əlaqələri vasitəsilə KOB-ların xarici bazarlara çıxışı artırılmalıdır.

**İnvestisiya mühiti:** KOB-ların daha çox sərmayə cəlb etməsi üçün əlverişli investisiya mühiti yaradılmalıdır.

KOB-ların inkişafı üçün dövlət və özəl sektorun əməkdaşlığı, texnologiyanın tətbiqi və beynəlxalq bazar əlaqələri vacibdir. Bu tədbirlər iqtisadi inkişafın sürətlənməsinə və KOB-ların daha rəqabətədavamlı olmasına kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. TUIK. Küçük ve Orta Ölçekli İşletmeler İstatistikleri. 2022, pp. 8-12.
2. ADB. Technology and Innovation for SMEs // Manila: ADB Publications, 2022, pp. 25-35.
3. ADB. The Role of SMEs in Asia-Pacific Economic Development // Manila: ADB Publications, 2021, pp. 22-30.
4. Butler J.C. Psychometric Theory. New York: McGraw-Hill // Journal of Market Research Society, 2008, 24 (2), pp. 98-122.
5. Cartsson J. Qualitative Inquiry and Research Design // The Journal of small business finance, 2008, 2(1), pp. 219-231.
6. ECA. Empowering African SMEs. Addis Ababa: United Nations Economic Commission for Africa, 2021, pp. 8-17.
7. European Commission. Commission Recommendation of 6 May 2003 Concerning the Definition of Micro, Small and Medium-Sized Enterprises // European Union, 2003, pp. 36-40. (https://eur-lex.europa.eu/eli/reco/2003/361/oj/eng).
8. European Commission. Horizon Europe: Supporting SMEs // Brussels: European Commission Publications, 2021, pp. 27-35.
9. Government of Canada. Canada Business Network: Annual Review. Ottawa: Government of Canada Publications, 2020, pp. 9-15.
10. Hallberg K.A Market-Oriented Strategy for Small and Medium-Scale Enterprises//. 2001, International Journal of Business and Management, pp.11-25.
11. Hayami F. Overview of Social Cognitive Theory and Self-efficacy // International Journal of Management, 2009, 12(1), pp. 44-55.

12.IFC. MSME Finance Gap: Assessment of the Shortfalls and Opportunities in Financing Micro, Small, and Medium Enterprises in Emerging Markets // Washington, DC: World Bank Group, 2017, 16 p. (https://documents.worldbank.org/en/publication/documents-reports/docume ntdetail/ 653831510568517947/msme-finance-gap-assessment-of-the-shortfalls-and-opportunities-in-finan cing-micro-small- and-medium--enterprises-in-emerging-markets).
13.ITC. SMEs in International Trade. Geneva: International Trade Center, 2021, pp. 19-25.
14.Jasra J.M., Khan M.A., Hunjra A.I., Rehman R.A.U. & Azam R.I. Determinants of business success of small and medium enterprises // International Journal of Business and Social Science, 2011, 2(20), pp. 274-280.
15.OECD. Financing SMEs and Entrepreneurs 2018: An OECD Scoreboard//. Paris: OECD Publishing, 2018, pp. 45-46.
16.OECD. SMEs and Regional Development//. Paris: OECD Publications, 2020, pp. 34-41.
17.OECD. The Contribution of SMEs to Economic Growth: Policies for Supporting Small and Medium Enterprises // OECD Publishing, 2021, pp. 8-15.
18.Pitman F. Internet cafe entrepreneurs: pioneers in information dissemination in Indonesia // The International Journal of Entrepreneurship and Innovation, 2008, 4(4), pp. 251-263.
19.UNDP. Sustainable Business Practices for SMEs. New York: United Nations Development Programme, 2019, pp. 12-24.
20.UNIDO. Corporate social responsibility and small & medium-sized enterprises (SMEs): Promoting competitiveness and business opportunities. Vienna: UNIDO, 2002, pp. 15-19.
21.UNIDO. Sustainable Strategies for Industrial Development and SMEs // Vienna: UNIDO Publications, 2021, pp.16-22.
22.Verhees F.J.H.M. & Muhlenberg M.T. G. Market Orientation, Innovativeness, Product Innovation// 2009, pp. 134-154. (https://www.researchgate.net/publication/ 272566629_ Market_ Orientation_ Innovativeness_Product_Innovation_and_Performance_in_Small_Firms).
23.World Bank. Annual Report. 2004, pp.11-18. (https://documents1.worldbank.org/-curated /en/912231468110689787/pdf/372750MENA0Disabilities01PUBLIC1.pdf).
24.World Bank. Small and Medium Enterprises (SMEs) Finance. 2019, pp. 24-28.
25.World Bank. Small and Medium Enterprises in Developing Countries: The Role of Financial Support and Employment. World Bank Publications, 2019, pp. 15-25.
26.World Bank. Small and Medium Enterprises: Key Drivers of Economic Growth//. Washington: World Bank Publications, 2020, pp. 15-20.
27.WTO. Trade Facilitation Agreement: Annual Report. Geneva: WTO Publications, 2022, pp. 19-25.
28.Zhu K. & Thatcher J.B. SMEs and Digital Transformation in Global Markets // Cambridge: Cambridge University Press, 2020, pp. 45-55.
29.https://www.statista.com/statistics/1261592/global-smes/.

***Резюме***

***Аслан Иманов***

***Вклад малого и среднего бизнеса в развитие экономики: Международный опыт***

Малые и средние предприятия (МСП) играют важную роль в экономике Азербайджана и с каждым годом оказывают всё большее влияние на экономическую систему страны. Проведённые в последние годы экономические реформы открыли широкие возможности для развития этого сектора и способствовали усилению значения МСП. Особенно заметен вклад МСП в развитие ненефтяного сектора и обеспечение занятости. Большинство зарегистрированных субъектов предпринимательства в стране относятся именно к этой категории, и их доля в экономике стабильно растёт. МСП способствуют росту экономической активности в регионах, улучшению уровня

жизни населения и развитию местного производства, играя тем самым ключевую роль в диверсификации экономики. Гибкость, стремление к инновациям и применение современных методов управления отличают эти предприятия на фоне других. Кроме того, государственная поддержка в виде налоговых льгот, льготных кредитов и помощи Агентства по развитию малого и среднего бизнеса (KOBİA) способствует устойчивому росту сектора.

В целом, значение МСП выходит за рамки экономических показателей – они также способствуют укреплению социальной стабильности, сокращению региональных различий в развитии и повышению устойчивости экономики. В связи с этим дальнейшее развитие и поддержка МСП остаются приоритетным направлением в стратегии долгосрочного развития Азербайджана.

**Ключевые слова:** *малый и средний бизнес (МСП), экономическое развитие, международный рынок, инновации, мировая торговая система*

***Summary***

***Aslan Imanov***

***Contributions of small and medium businesses to economic development: International experience***

Small and medium-sized enterprises (SMEs) play a crucial role in the Azerbaijani economy and are becoming increasingly influential in the overall economic structure. Recent economic reforms have created broad opportunities for the development of this sector, further strengthening the importance of SMEs. Particularly in the context of the non-oil sector and employment generation, the contribution of SMEs is of strategic significance. A large portion of registered business entities in the country falls under this category, and their share in the economy is growing steadily.SMEs actively contribute to boosting economic activity in the regions, improving the population's social well-being, and supporting local production, thereby playing a key role in economic diversification. Their flexibility, openness to innovation, and adoption of modern management models make them distinct within the business environment. Additionally, state-supported initiatives—such as tax incentives, concessional loans, and the assistance of the Small and Medium Business Development Agency (KOBİA)—play a vital role in ensuring the sustainable development of the sector.

Overall, SMEs are not only important from the perspective of economic indicators but also in strengthening social stability, reducing regional development disparities, and ensuring economic resilience. Therefore, continued support and development of the SME sector remain among the key priorities in Azerbaijan's long-term development strategies.

**Key words:** *small and medium-sized business (SMEs), economic development, international, market, innovation, global trade system*

Redaksiya heyətinin üzvü i.e.d., prof. Məmmədov Elşad Yaqub oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.